# KOVALYOV YURİ PETROVİÇ



Yuri Petroviç Kovalyov 29 noyabr 1965-ci ildə Göyçay rayonunda anadan olmuşdur. 1972-ci ildə ailəsi ilə Rusiyanın Krasnodar vilayətinə köçmüş 5 ildən sonra Bakıya qayıtmışdır. 1981-ci ildə Bakının Nizami rayonundakı 229 saylı orta məktəbi bitirmişdir. 1983-cü ildə ordu sıralarına çağırılmış 1985-ci ildə ordudan tərxis edilmişdir. 1987-ci ildə Qırmızı Bayraqlı Qara Dəniz Donanmasının 109 nömrəli miçmanlar və praporşiklər məktəbinə daxil olub. Arzusu dənizçi olmaq idi. Azərbaycan torpaqlarından soydaşlarımızın qovulması, qətlə yetirilməsi bir sözlə erməni vəhşilikləri onu narahat edirdi buna görə də o, 1990-cı il 15 sentyabr DİN-nin Xüsusi Təyinatlı Polis Dəstəsinə yazılır və döyüş bölgələrində vuruşmağa başlayır. Yuri Goranboy cəbhəsində əfsanələr yazmışdı erməni snayperləri onu dağlar-daşlar arasında axtarırdılar. Yurinin başına yüz min rubl pul mükafatı belə qoyulmuşdu. 1991-ci il 3 oktyabr Yuri əməliyyatdan qayıdırdı, o, Ağdama tərəf irəliləyirdi Xocavənd ərazisində onun avtomobili atəşə tutuldu bütün varlığı ilə Azərbaycana bağlı olan, onun hər qarış torpağını canından əziz tutan Yuri qəhrəmancasına həlak oldu. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilib. Ailəli idi, iki qızı yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 6 iyun 1992-ci il tarixli, 831 saylı fərmanı ilə Kovalyov Yuri Petroviç ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür. Bakı şəhərindəki 229 saylı məktəb qəhrəmanımız Kovalyov Yurinin adını daşıyır.